*UOT 372.881.111.1*

***Aysel Elşən qızı Qasımzadə***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Xarici Dil Mərkəzinin ingilis dili müəllimi*
*https://orcid.org/0009-0002-2343-0364*
*E-mail: gasimzadeaysel7@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).244-247*

# İNGİLİS DİLİ MÜƏLLİMLƏRİNİN PEŞƏKAR İNKİŞAFININ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

***Aysel Elshan Gasimzada***
*English teacher of the Foreign Language Center*
*Azerbaijan State Pedagogical University at*

# PEDAGOGICAL FEATURES OF THE ENGLISH LANGUAGE TEACHERS' PROFESSIONAL DEVELOPMENT

***Айсель Эльшан гызы Гасымзаде***
*преподаватель английского языка Центра Иностранных Языков*
*Азербайджанского Государственного Педагогического Университета*

# ПЕДАГОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРОФЕССИОНАЛЬНОГО РАЗВИТИЯ УЧИТЕЛЕЙ АНГЛИЙСКОГО ЯЗЫКА

**Xülasə.** Müəllim peşəsi üçün peşəkar səriştələrin inkişaf etdirilməsi məsələsi bu məqalənin diqqət mərkəzindədir. Məqalənin məqsədi ingilis dili müəllimlərinin hazırlanmasında strateji istiqamətləri və pedaqoji xüsusiyyətləri vurğulamaq, şəxsi mədəni və sosial, peşə və təhsil səriştələrini məqalədə vurğulayaraq dörd əsas peşə səlahiyyətləri kateqoriyasını təqdim etməkdir. Uğurlu bir xarici dil müəllimi olmaq üçün lazım olan əsas bacarıqlara dair ümumi məlumatlar araşdırılır. Məqalə praktiki cəhətdən ingilis dili müəllimlərinin hazırlanmasında məlumatları və lazım olan biliklərin istifadəsində əhəmiyyətli dərəcədə faydalı bir resurs ola bilər.
***Açar sözlər:*** *peşəkar səriştələr, pedaqoji xüsusiyyətlər, şəxsi, sosial, peşə səriştələri*

**Abstract.** The issue of developing professional competencies for the teaching profession is the focus of this article. The aim of the article is to highlight strategic directions and pedagogical features in the preparation of English language teachers, to present four main categories of professional competencies, emphasizing personal, cultural and social, professional, and educational competencies in the article. General information on the basic skills needed to be a successful foreign language teacher is examined. The article can be a significantly useful resource for the practical use of information and necessary knowledge in the preparation of English language teachers.
***Keywords:*** *professional competencies, pedagogical features, personal, social, professional competencies*

**Аннотация.** В статье рассматривается вопрос развития профессиональных компетенций педагога. Цель статьи – выделить стратегические направления и педагогические особенности в подготовке учителей английского языка, а также представить четыре основные категории профессиональных компетенций, сделав акцент на личностных, культурных и социальных, профессиональных и образовательных компетенциях. Рассматривается общая информация об основных навыках, необходимых для успешного преподавания иностранного языка. Статья может стать полезным ресурсом для практического использования информации и необходимых знаний при подготовке преподавателей английского языка.
***Ключевые слова:*** *профессиональные компетенции, педагогические особенности, личностные, социальные, профессиональные компетенции*

## GİRİŞ 1.

Müəllimlərin peşəkar inkişafı (Pİ) təhsil sisteminin mühüm tərkib hissəsidir, çünki o, müəllimlərə şagirdlərin fəaliyyətində özünü əks etdirən yeni bilik və bacarıqlar əldə etmək üçün zəruri imkanlar yaradır.

S. Akalın və B. Sucuoğlu, (2015) qeyd edir ki, müəllimlərin ingilis dilində peşəkar inkişafı təhsilalanların gələcək həyatlarında və karyeralarında tədris keyfiyyətini yaxşılaşdırılmasında və təkmilləşdirilməsində ən çox gözlənilən cəhdidir. Ümumi təhsil məktəblərində tədris-təlim prosesinə xas olan əsas faktor müəllimlərdir. [1, s. 41]. Məlumdur ki, ingilis dili müəllimləri formal təhsil, əsas təhsil və orta təhsildə öyrənənləri tərbiyə etmək, öyrətmək, istiqamətləndirmək, təlim keçmək, qiymətləndirmək və inkişaf etdirmək kimi əsas vəzifəsi olan peşəkar pedaqoqlardır. S.Auvaliti (Auliawati, 2017) qeyd edir ki, müəllim və ya pedaqoq, tələbələrin həm mənəvi, həm də fiziki aspektlərdə şəxsiyyətinin inkişafına və qabiliyyətlərinə rəhbərlik etməkdən məsul olan şəxsdir ki, tələbələr müstəqil şəkildə fərdi və sosial varlıq kimi fəaliyyət göstərə bilsinlər [2, s. 34].

Tələbələrə xarici dilləri öyrədərkən müəllimlər peşəkar tərcüməçi, tənqidçi, bilik və mədəniyyətin varisləri rolunu öz üzərinə götürməlidirlər. Tədrislə bağlı müxtəlif kontekstlərdə onlar həm də tədris dilində aydın və qrammatik danışmağı bacarmalıdırlar.

Peşəkar müəllim öyrənənlər üçün bir nümunədir, müəllim-tələbə münasibətlərinin səmərəli şəkildə qurulması onların təlim nəticələrinin uğurlu şəkildə əldə olunmasına təsir edir. Məlumdur ki, müəllimin təlim davranışları və rəftarı sinifdə öyrənənlər tərəfindən daha çox təqlid edilir və örnək xarakteri daşıyır. Yəni müəllim də tədris etdiyi auditoriyada böyük məsuliyyətlər və vəzifələr daşıyır. Buna görə də, müəllimlər həqiqətən tələbələrini əldə etmək istədikləri məqsədlərə çatdırmalıdırlar (Martina, et al. 2020). Müəllimin müasir yanaşması üzrə istifadə etdiyi parametrlər təlim prosesinin əlverişli dizaynına və modelləşdirilməsinə kömək edə bilər. Müəllimlərin istifadə etdiyi hər bir sinif fəaliyyəti öyrənənlərin necə öyrənmələri və müəllimlərin bilik və fərziyyələrdən tədris zamanı necə istifadə etmələri haqqında bilik və fərziyyələrin əksidir.

### 1.1. Müəllim hazırlığının pedaqoji xüsusiyyətləri

İngilis dili müəlliminin peşəkar inkişafı bir sıra pedaqoji aspektlərin inkişaf etdirilməsi ilə ölçülür. Bundan əlavə, dilin tədrisində hər hansı yanaşma xarici dil öyrənmək kimi möhkəm əsaslandırılmalıdır. Dil pedaqogikasında bir neçə üsul var, lakin onları üç yerə, *struktur, funksional və interaktiv* olmaqla bölmək olar. Bunların hər biri dilləri öyrətmək və öyrənmək üçün istifadə edilə bilən bir neçə metodu əhatə edir.

Tələbələrinin auditoriyada irəliləyişini dəstəkləməyi qarşısına məqsəd qoyan müəllimlər təlimdə ingilis dilinin səmərəli tədrisi üçün uyğun dil mühiti yaratmalı, motivasiyanı artırmalı, stressin idarə olunmasını və tədris materiallarını nəzərə almalı və onları tələbələrin ehtiyaclarına uyğunlaşdırmalıdır. Eyni zamanda, dilin kommunikativ inkişaf etdirilməsi üçüm onlar auditoriya şəraitini düzgün təşkil etməli, təlim qaydalarını və normalarını müəyyən etməli və həyata keçirməlidir. Bu məqsədlə, təlim və qiymətləndirmə prosesində öyrənənlər məsuliyyət daşımalı və müsbət sinif mühiti yaratmalıdırlar.

Bundan əlavə, xarici dil müəllimi müxtəlif inkluzivlyi tətbiq etmək üçün təlimatını dəyişdirməli, diferensial təlimə üstünlük verməli, müxtəlif bacarıqları nəzərə alan resurlar hazırlamalı, dərslərinə İKT-dən səmərəli istifadə etməli, təhsil məqsədlərinə çatmaq üçün tələbələrlə əməkdaşlıqda işləməli və layihə və proqramlar yaratmaq üçün müəllim komanda yaratmalıdır.

Xarici dilin tədrisi prosesinin özü və ya bu fəsildə ingilis dili pedaqogikası adlandırılan proses mürəkkəb və çoxşaxəlidir. O, dilin qrammatik aspektlərindən, dilin sosial aspektlərindən, ikinci dilin öyrədilməsi və öyrənilməsinə aid olan nəzəriyyələr, metodlar, yanaşmalar, texnika və strategiyalardan ibarətdir ki, bu da müəllimlərə öz peşələrində uğur qazanmağa kömək edir. Bunlara fonetika və fonologiya, sintaksis, semantika, dil tədrisinə davranış yanaşması kimi müxtəlif mövzular daxildir.

Müəllimlər öz peşəkar inkişafının bilavasitə fəal iştirakçısısdırlar. Peşəkar müəllimlər akademik ixtisas və səriştəyə malik olmalıdırlar. Müəllimin malik olmalı olduğu səriştə, yəni pedaqoji səriştə, *şəxsi kompetensiya, sosial kompetensiya və peşə kompetensiyasıdır* [ 2, s.24].

*Şəxsi kompetensiya* – ingilis dili müəllimlərinin şəxsi səriştələri ünsiyyət bacarıqlarının, uyğunlaşma qabiliyyətinin və öyrətmə və öyrənmə üçün əsl həvəsin qarışığını əhatə edir. Tez-tez "yumşaq bacarıqlar" olaraq adlandırılan bu bacarıqlar müsbət və effektiv öyrənmə mühiti yaratmaq üçün çox vacibdir. Müəllimlər öz sahələrində səriştəli olmaq üçün etibarlı obyektlərin, davamlı təlimlərin, seminarların, müvafiq təlim mühitinin, təlim materiallarından müstəqil istifadənin və uğurlu tədris metodlarının dəyərini qiymətləndirməlidirlər.

*Sosial kompeyensiya* – sosial səriştələrə müxtəlif öyrənmə üslublarını və fonlarını dəstəkləyən inklüziv təcrübələri təşviq etmək üçün dil öyrənmənin qurulması kimi dəyərləndirilir. Buraya tələbə dəstəyini artırmaq üçün valideynlər və cəmiyyətlə səmərəli əlaqə qurmaq; ən yaxşı təcrübələri və resursları bölüşmək üçün həmkarları ilə əməkdaşlıq etmək də daxil edilir. Effektiv pedaqoq müəllimlər həmçinin öyrənənlərin irəliləyişlərini qiymətləndirmək və onların metodlarını tələbələrinin dinamik ehtiyaclarını ödəmək üçün uyğunlaşdırmaqda bacarıqlı olmalıdırlar. Bu vahid yanaşma təkcə tələbələrin müxtəlif ehtiyaclarına cavab vermir, həm də bütün tələbələr üçün daha yaxşı nəticələrə gətirib çıxaran daha əməkdaşlıq və zənginləşdirici təhsil mühitini təşviq edir.

*Peşə səriştələri* ingilis dili müəllimlərinin peşəkar səriştələri uğurlu dil tədrisi üçün vacib olan geniş qabiliyyət və fənn sahələrini əhatə edir. Güclü dil bacarıqları, pedaqoji biliklər və inklüziv və stimullaşdırıcı öyrənmə mühitlərini tərtib etmək bacarığı bunlardan bir neçəsidir. Peşəkar ingilis dili müəllimləri də davamlı peşəkar inkişafa sadiq olmalı və mükəmməl ünsiyyət, komanda işi və çeviklik bacarıqlarına malik olmalıdırlar [4, s.149].

İngilis dili müəllimlərinə peşəkar səriştələrini inkişaf etdirməyə kömək edəcək ən yaxşı məsləhətlər peşəkar davranış məsələləri, tələbələrlə davranış strategiyaları və onların dil istehsalı, mənalı ünsiyyətin əhəmiyyəti və müəllimin göstərdiyi nümunə daxildir.

**1.2. İngilis dili müəllimin peşəkar bacarıqları**

Pedaqoji yanaşmalar baxımından müəllimin hazırlığı aşağıdakı sahələrin inkişaf etdirilməsini təklif edir:

– *Peşəkar davranış*
– *Auditoriyanın idarəsi*
– *Müəllim yanaşması*
– *Dil istehsalı*

**1) Peşəkar davranış**

Peşəkar davranışa çeviklik, punktuallıq və operativlik daxil olmaqla bir sistemlilik yaranır. Burada öyrənmə və tədris sahələrində daim dəyişən amillərə uyğunlaşmaq üçün öz yanaşmanızı dəyişdirmək və dəyişdirmək üçün peşəkar inkişafınızın fəziləti ilə bağlıdır. Buna görə də, ingilis dilini təkmilləşdirmək və təzələmək üçün ən yaxşı yolları axtarmaq lazımdır. Tədris taktikasını bəzən özünütənqid vasitəsilə qiymətləndirmək lazımdır və bu yüksək konstruktivliyə və mükəmməlliyə aparır [3, s. 1424].

**2) Auditoriyanın idarəsi**

Auditoriyanın səmərəli idarə olunması üçün tələbələrin tam iştirakına nail olmaq üçün auditoriyada rahat atmosfer yaradılmalıdır. Tələbələr əməkdaşlıqda fəaliyyət göstərərək qrup işi ilə məşğul olduqda, nizam-intizam və möhkəmlik böyük əhəmiyyət kəsb edir. Bu zaman müəllimlə sinif arasındakı dostluq münasibəti tələbələrin dil öyrənməyə münasibətinə mühüm təsir göstərir.

**3) Müəllim yanaşması**

Təlimdə müəllimin yaradıcı olmalıdır, çünki müəllimin uğurunun çox hissəsi onun təxəyyül gücündən, orijinallığından və yaradıcılığından asılıdır. Müəllimlik elmdən daha çox sənətdir.

**4) Dil istehsalı**

Öyrənənlərin davamlı nitq axınını təşviq edən orijinal ünsiyyət vəziyyətlərinə cəlb etmək dilin produktiv istehsalına səbəb olur. Burada dilin mənimsənilməsi onun təbii şəkildə məşq edilməsindən asılıdır.

– Tələbələrə dildən istifadə etmək üçün hər cür şans vermək lazımdır. Tələbələrin qarşılıqlı əlaqədə olmasına imkan vermək üçün mümkün qədər az danışmağa imkan yaratmaq onlarda maraq yaradır. Həddindən artıq çoxlu məlumat öyrətmək artıq stress yaradır və bu baxımdan dərsi müəllim mərkəzli deyil, tələbə mərkəzli etmək tələb olunur [ 4, s. 134 ] .

– Dili uyğun sosial kontekstlərdə öyrətmək maraqlı olur. Bu zaman sözü cümlə ilə, cümləni vəziyyətlə, vəziyyəti real həyatla əlaqələndirmək lazımdır.

– Dərsi daha cəlbedici etmək üçün tədris vasitələrindən düzgün istifadə edərək vaxta və səyə qənaət etmək tələb olunur.

– Səhvləri aradan qaldırmaq üçün təsirli vasitələrdən istifadə etmək tələb olunur. Həmişə əldə edə bilmədiklərinə deyil, nəyə nail olduqlarına diqqətə almaq lazımdır.

– Öyrənənlərin nailiyyətlərini qiymətləndirərkən dəqiq olmaq vacibdir və verilən qiymətlər sinfin real standartına uyğun olmalıdır

Təşkilatçılıq nümunəsi olan planlaşdırma dərsin axıcı və idraki fəaliyyət ardıcıllığı ilə getməsinə imkan yaradır. Bununla tələbələr planlaşdırma və təşkilatçılıq qabiliyyətlərini inkişaf etdirməyə təşviq edilir. Dərsin zövqlü olması üçün mövzudan və əyləncəli mühitdən zövq almaq bacarığı effektiv öyrənmənin açarıdır. Unutmayaq ki, insan zövq alaraq öyrəndiklərini heç vaxt unuda bilməz və yaddaşa təsiri heç vaxt sönməz. Maraqsızlıq reaksiyanın olmaması deməkdir.

**Problemin aktuallığı.** Ali təhsilin missiyası universitet məzunlarının gələcək fəaliyyətlərində tələb olunan spesifik peşə bacarıqlarını inkişaf etdirməkdir. Xarici dilin öyrənilməsinə peşəkar yönümlü yanaşma peşəkar təfəkkür və biliklərin tətbiqi xüsusiyyətlərini nəzərə almaqla, xüsusi peşəkar, işgüzar və akademik situasiyalarda tələbələrin xarici dildə ünsiyyət qurmaq bacarığını formalaşdırmaqdan ibarətdir.

**Problemin elmi yeniliyi.** Xarici dil kommunikativ səriştəsinin peşəkar komponenti məzunun malik olmalı olduğu peşəkar bacarıqlar toplusundan ibarətdir. Şəxsi və sosial-mədəni səriştələr, peşə səriştələri kimi peşəkar səriştələr gələcək xarici dil müəllimlərinin hazırlanması üçün xüsusilə aktualdır. Beləliklə, bütün bu komponentlər xarici dil müəllimlərinin peşəkar səriştəsini təşkil edir və praktiki xarici dil dərsləri üçün məzmunun planlaşdırılması və seçilməsi zamanı nəzərə alınmalıdır.

**Problemin praktiki əhəmiyyəti.** Tədqiqat məqaləsində verilən təhlillər və nəticələr ali təhsildə ingilis dili müəllimlərinin hazırlanmasında istifadə oluna bilər. Bundan əlavə, ingilis dilinin müasir metodologiyasında faydalı bir resurs kimi əhəmityyətli rol oynaya bilər.

## Ədəbiyyat

1. Akalin, S., Sucuoglu, B. Effects of Classroom Management Intervention Based on Teacher Training and Performance Feedback on Outcomes of Teacher-Student Dyads in Inclusive Settings. Kuram ve Uygulamada Egitim Bilimleri, 15(3), 2015 –739–758. doi:10.12738/estp. 2015.3.2543
2. Auliawati, S. Kompetensi pedagogik guru agama Islam di SMA Negeri 12 Banda Aceh. Skripsi, Program Sarjana, Universitas Islam Negeri Ar-Raniry Darussalam Banda Aceh. Banda Aceh. Unpublished. 2017 – pp.12- 36.
3. Martina, F., Syafryadin, J.S., Rakhmanina, L. Novice teachers’ pedagogical content knowledge (PCK) in teaching English for young learners. Journal of Critical Reviews, 7(14), 2020 – pp.1472-1476.
4. Subhan, Z. The pedagogy of teaching English to young learners: Implications for teacher education. Indonesian Journal of English Language Teaching, 2017. – pp.134- 156

**Redaksiyaya daxil olub:**15.10.2025